**“Dayanıqlı inkişaf və iqlim dəyişikliyi media perspektivində” mövzusunda təlim proqramının birinci mərhələsi yekunlaşıb**

Medianın İnkişafı Agentliyinin və ADA Universiteti İnkişaf və Diplomatiya İnstitutunun birgə təşkilatçılığı ilə BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) işıqlandırılmasında aktiv iştirak edəcək ingilisdilli jurnalistlər üçün silsilə təlimlər çərçivəsində “Dayanıqlı inkişaf və iqlim dəyişikliyi media perspektivində” mövzusunda təlim proqramının birinci mərhələsi yekunlaşıb.

AZƏRTAC xəbər verir ki, ingilis dilində təşkil olunan təlimin ikinci günündə bərpaolunan enerji, iqlim dəyişikliyi məsələləri və dayanıqlılıq üzrə ixtisaslaşmış kommunikasiya mütəxəssisi Nik Mediç “Dayanıqlı inkişaf anlayışı”, “İqlim dəyişikliyi, bərpaolunan mənbələr və dayanıqlılıq üzrə hesabatlar” adlı sessiyalarda çıxış edib, qeyd olunan istiqamətlər üzrə media nümayəndələri ilə geniş fikir mübadiləsi aparıb.

ADA Universiteti İnkişaf və Diplomatiya İnstitutunun Enerji və Dayanıqlı İnkişaf Proqramının baş elmi işçisi, təlimçi Əhməd Hümbətov isə “Azərbaycanın enerji siyasəti: neft və qaz kəmərlərindən yaşıl enerji dəhlizlərinə doğru”, “İqlim dəyişikliyi dalğası ilə hərəkət etmək: Azərbaycan bunun öhdəsindən necə gəlir?” mövzusunda sessiyalarda jurnalistlərə ətraflı məlumat verib.

Proqramın bağlanış mərasimində çıxış edən Medianın İnkişafı Agentliyinin icraçı direktorunun müavini Natiq Məmmədli bildirib ki, birgə əməkdaşlıq çərçivəsində təşkil olunan təlimdə media nümayəndələrinə ölkəmizdə keçiriləcək COP29-la bağlı müxtəlif istiqamətlərdə verilən informasiyalar gələcəkdə tədbirin işıqlandırılması zamanı keyfiyyətli kontentin yaradılmasında əhəmiyyətli rol oynayacaq.

İnkişaf və Diplomatiya İnstitutunun İxtisasartırma Proqramlarının rəhbəri Nərgiz İsmayılova isə vurğulayıb ki, bu müddət ərzində iştirakçılarla birlikdə iqlim dəyişikliyinin səbəbləri, nəticələri və qarşısının alınması metodları müzakirə edilib, təlim olduqca effektiv fikir mübadiləsi ilə yadda qalıb.

Sonra təlim iştirakçılarına sertifikatlar təqdim olunub. Sertifikat alanlar arasında AZƏRTAC-ın əməkdaşları da var.

**AZƏRTAC**
**2024, 14 mart**